PARADIGMA, No.4, 2025, səh.29-36
https://doi.org/10.30546/30015.2025.01.4.1011

# SOSİAL TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ OLAN UŞAQLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASINDA SOSİAL XİDMƏTİN ROLU

**M.N. Mahmudova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli küç.71, Bakı, Azərbaycan
e-mail: Maisa.Mahmudova@student.au.edu.az

**Xülasə:** Mətn sosial xidmət institutunun çətin həyat şəraitində olan şəxslər, xüsusilə də uşaqlar üçün əhəmiyyətini geniş şəkildə izah edir. Azərbaycan Respublikasının "Sosial xidmət haqqında" Qanununa əsasən çətin həyat şəraiti insanın iradəsindən asılı olmayan və təkbaşına aradan qaldıra bilmədiyi hallarla xarakterizə olunur. Baxımsız, sosial təhlükəli vəziyyətdə olan və əlilliyi olan uşaqlar bu kateqoriyaya daxildir və onların sosial müdafiəsi dövlətin prioritet vəzifələrindəndir. Sosial yadırğama və sosial məhrumiyyət uşaqların risk qrupuna düşməsində əsas amillər kimi göstərilir. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və milli qanunvericilik uşaqların hüquqlarının qorunmasını, keyfiyyətli sosial xidmətlərin göstərilməsini təmin edir. Mətn sosial xidmətlərin mərhələlərini, uşaqların hüquq və vəzifələrini, eləcə də reabilitasiya və ailəyə reinteqrasiya istiqamətində institusional islahatların vacibliyini vurğulayır.

**Açar sözlər:** Sosial xidmət, çətin həyat şəraiti, uşaq hüquqları, sosial təhlükəli vəziyyət, sosial reabilitasiya.

## Giriş

Sosial xidmət çətin həyat şəraitində olan şəxsin (ailənin) həyat fəaliyyətini obyektiv surətdə pozan, onun müstəqil surətdə aradan qaldıra bilməyəcəyi vəziyyətə görə müəyyən edilən sosial institutdur. "Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Qanuna əsasən həmin vəziyyət qanunla çətin həyat şəraiti kimi təsbit edilir. Çətin həyat şəraitini isə qanunvericilik şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə, yəni insan iradəsindən asılı olmayan hallarda pozan, şəxsin (ailənin) özü tərəfindən təkbaşına aradan qaldıra bilməyən hal kimi xarakterizə edir. Bəzi müəlliflər isə çətin həyat şəraitini sosial qeyri-stabillik, yəni, böhranlı, stressli, ekstremal, qeyri-müəyyən və kəskin vəziyyət kimi xarakterizə edirlər [6, s.37; 11, s.439].

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunu 18 yaşadək əlilliyi müəyyən edilmiş uşaqlar, eləcədə baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün keyfiyyətli sosial xidmətlərin təmin edilməsini mühüm bir vəzifə kimi qarşıya qoyur. Ona görə ki, qanunvericilik onları çətin həyat şəraitində olan şəxslər kateqoriyasına aid edir. Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olma eyni zamanda şəxsin sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyəti ilə bağlıdır.

Sosial yadırğama (dezadaptasiya) şəxsin (ailənin) sosial mühitə uyğunlaşma qabiliyyətinin itirilməsi, sosial məhrumiyyət (deprivasiya) isə şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olmasıdır. Göründüyü kimi sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) şəraitində yaşayan ailələr işərsində sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlarda çətin həyat şəritində olan hesab edilirlər. Yetkinlik yaşına çatmayanlar isə uşaq statusuna malik olan şəxslər kimi çıxış edirlər.

Səhiyyə, təhsil, habelə hüquqi, mülki və sosial xidmətlərdə standartlar yaratmaqla, uşaq hüquqlarını qoruyan BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasında ( Konvensiya 1990-cı il 2 sentyabr tarixində qüvvəyə minmişdir və Azərbaycan Respublikası həmin Konvensiyaya Milli Məclisinin 1992-ci il 21 iyul tarixli Qərarı ilə qoşulmuşdur [9, s. 15] harada olmasından asılı olmayaraq və heç bir ayrı-seçkilik qoyulmadan bütun uşaqların malik olduqları təməl insan huquqları yer alıb:

- sağ qalmaq hüququ;
- hərtərəfli tam inkişaf etmək hüququ;
- zərərli təsirlərdən, pis rəftardan və istismar edilməkdən qorunmaq;
- ailədə, mədəni və sosial həyatda tam iştirak etmək hüququ.

Konvensiyada ifadə olunan hər bir hüquq uşaqların ləyaqətlə və ahəngdar inkişafına aiddir. Konvensiyanın iştirakçısı olan dovlətlər bütun fəaliyyətlərini və siyasətlərini uşaqların maraqlarını mütləq şəkildə nəzərə almaqla planlaşdırmağa və həyata kecirməyə məcburdurlar.

Qeyd etmək lazımdır ki, «Uşaq hüquqları haqqında» Konvensiya uşaq hüquqları sahəsində əvvəllər qəbul edilmiş sənədlərlə müqayisədə ən dolğun və bu hüquqların beynəlxalq hüquq normaları qüvvəsinə mindirildiyi ilk sənəddir. İştirakçı dövlətlərin sayına görə bu, BMT-nin ən çoxsaylı konvensiyasıdır. İki ölkədən başqa bütün dünya dövlətləri «Uşaq hüquqları haqqında» Konvensiyanın iştirakçısıdır. Bu fakt özü-özlüyündə uşaq hüquqlarının qorunmasına, onlara qayğı və xidmət göstərilməsinə dünya cəmiyyətinin yüksək əhəmiyyət verməsini sübut edir.

Azərbaycan Respublikası uşaq hüquqlarının müdafiəsi, onlara sosial xidmətin göstərilməsi sahəsində iştirakçısı olduğu beynəlxalq müqavilələrə uyğun olaraq milli qanunvericilik sistemində bir sıra hüquqi islahatlar həyata keçirmişdir. 19 may 1998-ci il tarixdə «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [9, s. 16] və həmin qanun Azərbaycan Respublikasında uşaqların hüquq və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onlara sosial xidmət göstərilməsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Məlumdur ki, uşaqlara sosial xidmət sahəsində siyasi təminatların formalaşması prosesi beynəlxalq hüquq normalarının nəzərə alınması əsasında reallaşdırılır. Hazırkı dövrdə ailə və uşaqlara sosial xidmət siyasəti formalaşmış, uşaq əlilliyinin qarşısının alınması, profilaktikası və sosial reabilitasiyası sistemi yaradılmış, müvafiq sosial müəssisələrin maddi bazası yaxşılaşdırılmış, uşaqların ən həssas qruplarının problemlərinin həllinin informasiya, metodiki və elmi təminatı sistemi hazırlanmışdır. Sosial xidmət institutu üzrə sosial təhlükəli vəziyyətdə olan uşaqların aşağıdakı hüquqları fərqləndirilir:

- sosial xidmət göstərən subyektlər tərəfindən, əsasən də Sosial Xidmətlər Agentliyi tərəfindən təqdim edilən sosial xidmətdən istifadə etmək;
- sosial xidmət göstərilməsi üçün müraciət etmək;
- sosial xidmət göstərilməsinin mümkünlüyü, qaydası və şərtləri, sosial xidmətin forma və növləri, habelə öz hüquq və vəzifələri barədə məlumat almaq;
- sosial xidmətə olan tələbatın müəyyən edilməsi və qiymətləndirilməsində iştirak etmək;
- sosial xidmətə olan tələbatın xarakteri nəzərə alınmaqla sosial xidmət göstərən müəssisəni seçmək;
- sosial xidmət göstərilməsinə razılıq vermək və ya sosial xidmət göstərilməsindən imtina etmək;
- sosial xidmət göstərən subyektlər tərəfindən şərəf və ləyaqətlərinə hörmət olunmasını və humanist münasibət bəslənməsini tələb etmək, habelə onların hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət etmək;
- sosial xidmət müəssisələrində sanitariya-gigiyena tələblərinə cavab verən şəraitlə təmin olunmaq;
- sosial xidmət müəssisələrində daxili intizam qaydalarını pozmamaq şərti ilə dini ayinlərin icrası üçün ayrıca yerlə təmin olunmaq;
- Çətin həyat şəraitində olan uşaqların sosial xidmət üzrə vəzifələri aşağıdakı kimi müəyyən edilmişdir:
- sosial xidmət göstərilməsinə tələbatın müəyyən edilməsi və qərar qəbul edilməsi üçün tam və düzgün məlumatları vermək;
- sosial xidmət göstərilməsinə təsir göstərən dəyişikliklər barədə sosial xidmət göstərən subyektləri dərhal məlumatlandırmaq;
- sosial xidmət müəssisələrinin daxili intizam qaydalarına əməl etmək;

– qanunda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Sosial təhlükəli vəziyyətdə olan uşaqlara sosial xidmət göstərən subyekt kimi sosial xidmət müəssisələri mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyəti həyata keçirən hüquqi şəxslərdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 oktyabr 2015-ci ил тарихли 320 nömrəli гярары иля yeni tip sosial xidmət müəsissəsi, yeni tip yaşayış evi statusu verilmiş Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsi yaradılmışdır. Həmin qərara görə müəssisə - milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, mənşəyindən asılı olmayaraq, dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş, yaşayış sahəsi olmayan məzunları üçün nəzərdə tutulmuş yaşayış evidir [2]. Respublikamızda hələlik yalnız bu tipli bir sosial xidmət müəsissəsi fəaliyyət göstərir və onun müsbət təctübəsindən istifadə edərək "Məzun evi" Sosial Müəssisə şəbəkəsinin daha da genişləndirilməsi təklif edirik.

Sosial təhlükəli vəziyyətdə olan uşaqların (benefisarların) sosial xidmətə götürülməsinin 3 mərhələsini fərqləndirmək olar:

– benefisarların sosial xidmət göstərilməsi üçün müraciət edilməsi mərhələsi

– benefisarların sosial xidmətlərə olan tələbatın qiymətləndirilməsi mərhələsi

– sosial təhlükəli vəziyyətdə olan uşaqların sosial xidmətə götürülməsi və ya ondan imtina edilməsi barədə qərarın qəbul edilməsi mərhələsi

Sosial təhlükəli vəziyyətdə olan uşaqların qanuni nümayəndələri sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzinə ərizə və ərizəyə çətin həyat şəraitində hesab edilməsi üçün əsas olan halları təsdiq edən sənədləri əlavə etməklə müraciət edir. Eyni zamanda çətin həyat şəraitində olan uşaqların maraqları çərçivəsində bələdiyyələr, qeyri-hökumət təşkilatları və digər şəxslər sosial xidmət göstərilməsi üçün müraciət edə bilər. Dövlət hakimiyyəti orqanları, bələdiyyələr çətin həyat şəraitində olan və sosial xidmətə ehtiyacı olan uşaqların müəyyən edilməsi və bu şəxslərin sosial xidmətə götürülməsi üçün onlar barəsində məlumatları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərirlər. Sosial təhlükəli vəziyyətdə olan uşaqlara sosial xidmət göstərilməsi barədə digər şəxslərin müraciətləri zamanı qanuna uyğun olaraq sosial xidmət göstərilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməlidir.

Sosial xidmətin göstərilməsi çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial xidmətlərə olan tələbatının sosial işçi tərəfindən qiymətləndirilməsi və müəyyən edilməsi əsasında həyata keçirilir.

Sosial xidmətin göstərilməsi barədə müraciət daxil olduğu gündən sonra 5 iş günü ərzində uşağın sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Sosial işçi ərizənin daxil olduğu gündən sonra 10 iş günü ərzində uşağın sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir. Sosial işçi tərəfindən sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə hesabat və uşaga sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlanır [7].

Hazırda respublikamızda sosial təhlükəli vəziyyətdə olan uşaqlara yardım göstərən sosial xidmət müəssisələri şəbəkəsi yaradılmışdır. Bu müəssisələrin işi uşaqların ailə ilə bağlılığını qoruyub saxlamağa kömək göstərir, uşaqların inkişafı, sağlamlığı və həyatı üçün təhlükələri aradan qaldırır. Lakin uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi səbəblərinin araşdırılması onların hüquqi təminatlarının əsasən zəif olması və ya olmaması səbəbindən internat evlərinə yerləşdirildiklərini aşkara çıxarmışdır. Belə ki, həmin uşaqların valideynlərinin (yaxud valideyninin) evlərinin qeyri-qanuni yollarla satışı, yaxud əllərindən alınması və hazırda uşaqlarını saxlamaq üçün mənzillərinin olmaması uşaqlarını saxlamaq imkanından məhrum etmişdir. Bəzi hallarda isə müalicəyə ehtiyacı olan uşaqların valideynləri imkansızlıq ucbatından müalicə edə bilməmələrinə görə uşaqlarını internat evlərinə təhvil verməli olurlar. Fikrimizcə, bu səbəblərində aradan qaldırıması istiqamətində profilaktik xarekterli tədbirlərində həyata keçirilməsinə ciddi zərurət vardı.

Uşağın hərtərəfli inkişafının təmin edilməsi üçün onun bioloji və ya alternativ ailə mühitində yaşaması çox vacibdir.

Artıq hazırkı mərhələdə uşaqların müdafiəsi sistemini kompleks və sistemləşdirilmiş şəkildə özündə əks etdirən bir qanunun qəbul edilməsinə zərurət vardır. Həmin qanuna uşaqların sosial müdafiəsinin digər elementləri ilə yanaşı onlara sosial xidmətlə bağlı aşağıdakı elementlər daxil edilməlidir:

- zorakılıq, valideyn tərəfindən və ya əməyinin istismarı təhlükəsi qarşısında qalan uşaqlar haqqında məlumatların verilməsi proseduru və bundan sonra görüləcək tədbirlər;
- uşağın bioloji ailədən fövqəladə hallarda ayrılmasını və dövlət uşaq müəssisələrinə yerləşdirilməsini əhatə edən meyarlar;
- sosial xidmətə ehtiyacı olan istənilən uşağın özü, onun ailə vəziyyəti və ehtiyacları barədə ətraflı qiymətləndirmə meyarları;

- uşaqların yalnız valideyn davranışından və ya valideyn nəzarətindən kənarda qalması nəticəsində zərər çəkmiş və ya böyük zərər çəkmək təhlükəsi qarşısında olduqda onların mənafeyi naminə bioloji ailədən ayrılması məsələləri və bu zaman valideyn hüquqlarından məhrum edilməsi haqqında qərarların verilməsi imkanları;
- uşaqlara təsir edən qərarların qəbulunda mümkün olan bütün hallarda onların iştiraklarının təmin edilməsi tələbləri;
- uşaqların sosial müdafiəsi üzrə milli məlumat bazasının yaradılması məsələsi;
- sosial müdafiəyə ehtiyacı olan uşaqlar üçün təyin ediləcək qəyyuma dair meyarlar, onun təyin edilməsi prosedurları və qəyyumun uşağın qohumlarından təyin edilməsinə üstünlük verilməsi məsələsi;
- yeddi yaşdan aşağı uşaqlara isə himayəçilik xidmətlərinin göstərilməsi mexanizmlərinin hazırlanması;
- himayəçi və qəyyum kimi təyin olunmaq üçün daha çox uşağa baxmaq arzusunda olan valideynlərin cəlb edilməsi məqsədi ilə məlumatlandırma tədbirlərinin həyata keçirilməsi və həmin şəxslərə kompensasiyanın ödənilməsi məsələləri.

Tədqiqatçı alim M. A. Hacıyevanın fikrincə, uşaqların sosial müdafiəsi sisteminin inkişafı və bu sahədə standartların müəyyən edilməsinə cavabdeh olan xüsusi bir dövlət orqanının yaradılması olduqca zəruridir. Məhz, ərazi üzrə uşaqların ehtiyaclarının öyrənilməsi və hansı xidmətə ehtiyaclarının olduğunu müəyyən etmək, o cümlədən uşaqların hüquqlarının (sosial, əmək, təhsil, səhiyyə, mülkiyyət və s.) qorunmasına yerli səviyyədə məsul olan orqan olmadan uşaqlara səmərəli xidmət göstərmək olduqca çətindir. Yerli səviyyədə yaradılması təklif edilən həmin qurumlar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən yaradılacaq xüsusi bir orqana tabe edilməli və onlar həmin nazirlik qarşısında hesabat verməlidirlər [10, s. 74–76].

Müsbət haldır ki, regionlarının  sosial iqtisadi inkişafına müxtəlif dövlət proqramlarında əsasən Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarında yetkinlik yaşına çatmayan və risk qrupuna daxil olan uşaqlar üçün ixtisaslaşdırılmış müəssisələrin, yəni sosial reabilitasiya mərkəzlərinin yaradılması və tikintisi nəzərdə tutulub. Artıq Bakı şəhərində belə bir müəssisə inşa olunmaqdadır. Burada əsas məqsəd yetkinlik yaşına çatmayan və yiyəsizliyə gətirib çıxarmış səbəblərin aşkar olunması və aradan götürülməsi, çətin həyat şəraitinə düşmüş yetkinlik yaşına çatmayanların müvəqqəti yaşamasının təmin olunması, həmçinin ailələrinə qayıtmasına yardım olunmasıdır. Belə uşaqların valideynlərinə (yaxud qanuni nümayəndələrinə) sosial, psixoloji və digərköməkliklərin olunması da nəzərdə tutulur.

Sosial təhlükəli vəziyyətdə olan ушаглар kateqoriyasına aid edilən zorakılığa məruz qalmış və cinayətin qurbanı olmuş uşaqlar üçün hesab edirik ki, respublikamızda xüsusi psixoloji-sosial reabilitasiya mərkəzinin yaradılması daha məqsədəmüfvafiq olardı. Belə ki, digər postsovet ölkələrindən fərqli olaraq, Azərbaycanda zorakılığa məruz qalmış, cinayətin qurbanı olmuş və müxtəlif hadisələrdən sarsıntı keçirmiş uşaqlar üçün sosial psixoloji xidmət mərkəzi fəaliyyət göstərmir. Ona görə ki, müdafiəyə və qayğıya ehtiyacı olan uşaq gözləyə bilməz, zorakılığa məruz qalmış uşaqların çağrışlarını cavabsız qoymaq mümkün deyil. Eyni zamanda fikrimizcə, həmin Mərkəzin nəzdində kiçik sığınacağın da yaradılması vacibdir. Əgər uşağa qarşı həddən ziyadə qəddar zorakılıq baş veribsə, o cümlədən cinsi zorakılıq, istismar qeydə alınıbsa və uşağın həmin mühitdə qalması onun mənafeyinə cavab vermirsə, uşaq orada saxlanılacaq.

Hesab edirik ki, uşağın tərbiyə üçün ailəyə verilməsinə, ailənin uşağı övladlığa və ya himayəyə götürməyə hazırlanmasına kompleks şəkildə yanaşılmalıdır və yeni tip müəssisələr – sosial təhlükəli vəziyyətdə olan uşaqlara yardım mərkəzləri tərəfindən həyata keçirilməlidir. Son illər uşaq evlərində uşaqların saxlanma şəraitinin və psixoloji-pedaqoji reabilitasiyasının təşkilinin yaxşılaşdırılması onların ailələrə adaptasiyası imkanlarını artırmışdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti, (2003), Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə Tədbirlər Planı, Bakı, Qanun, 10 s.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 oktyabr 2015-ci il tarixli 320 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün “Məzun evi” Sosial Müəssisəsinin Nizamnaməsi”: 13 dekabr, 2025. https://anl.az/down/meqale/azerbaycan/2015/oktyabr/458223.htm
3. Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı çərçivəsində “2010-cu ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda konfransın materialları, (2010), Bakı, 92 s.
4. Əliyev A. Y., Əliyev İ. A., Qasımov N. Y., (1998), Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri, Bakı, 89–109.
5. Əliyev M.N., (2006), Yoxsulluğa qarşı mübarizənin hüquqi problemləri, Bakı, Bakı Universiteti nəşriyyatı, 183 s.

6. Əliyev M. N., (2017), Əlilliyi olan şəxslərin reabilitasiya hüququnun sosial-hüquqi mahiyyəti və təkmilləşdirilməsi problemləri, Sosial həyat, sosial elmi jurnal, Bakı, 34–39.
7. «Sosial xidmət haqqında» 2011-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu: - 12 dekabr, 2025. https://e-qanun.az/framework/23195
8. "Uşaq hüquqları haqqında" 1998-ci il19 may tarixli Azərbaycan Respublikasının Qanunu: - 12 dekabr, 2025. https://e-qanun.az/framework/3292
9. Uşaq hüquqları: Beynəlxalq standartlar və yerli qanunvericilik, (2010), Bakı, İsmayıl Nəşriyyatı, 664 s.
10. Hacıyeva M. A., (2009), Sosial xidmət institutunun inkişafı, Yurist, Almatı, №7 (97), 74–76.
11. Maçulskaya E. E., (2016), Sosial təminat hüququ (bakalavrlar üçün dərslik), Moskva, Yurayt, 576 s.

## THE ROLE OF SOCIAL SERVICES IN THE INTEGRATION OF CHILDREN IN SOCIALLY RISKED SITUATIONS INTO SOCIETY

**M.N. Mahmudova**
Azerbaijan University, Jeyhun Hajibeyli str.71, Baku, Azerbaijan

**Abstract:** The text extensively explains the importance of the social service institution for people in difficult life situations, especially children. According to the Law of the Republic of Azerbaijan "On Social Service", difficult life situations are characterized by situations that do not depend on a person's will and cannot be resolved on their own. Children who are neglected, in a socially dangerous situation and with disabilities are included in this category, and their social protection is one of the state's priority tasks. Social exclusion and social deprivation are indicated as the main factors in children falling into the risk group. The UN Convention on the Rights of the Child and national legislation ensure the protection of children's rights and the provision of quality social services. The text emphasizes the stages of social services, the rights and obligations of children, as well as the importance of institutional reforms in the direction of rehabilitation and family reintegration.

**Keywords:** Social service, difficult life situations, children's rights, socially dangerous situation, social rehabilitation.